NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## *Elmi araşdırmalar jurnalı*

# № 1 (28)



Bakı – "Elm və təhsil" – 2025

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi**
**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 16 may 2025-ci il tarixli (protokol № 5)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Başirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Gulbahor Aşurova, filologiya üzrə elmlər doktoru, professor,**
**Alişir Navai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti, Özbəkistan**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor,**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 1 (28)**
**Bakı, “Elm və təhsil” nəşriyyatı, 2025, 116 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər “risalə” adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə “Risalə” adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarı ilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2025**

# Oxuyacaqlarınız



# RİSALƏ
# *Elmi araşdırmalar jurnalı*

*№1.2025(28)*

## Mündəricat

**KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ**

*HÜSEYNOV Rafael.*
The concept of the veil in classical art and poetry and the veils of Nasimi
doi.org/10.30546/2702-0034.2025.1.28.007

*ABDULLAYEVA Şəhla.*
Klassik fars-yəhudi ədəbiyyatının banisi Mövlana Şahin Şirazinin həyat və yaradıcılığına qısa baxış
doi.org/10.30546/2702-0034.2025.1.28.010

*DƏMİROVA Cəmilə.*
Ərəb–Siciliya ədəbiyyatında Məhəmməd ət-Tubi izi
doi.org/10.30546/2702-0034.2025.1.28.015

*ƏMİRASLANOVA Aynurə.*
Milli mətbəx nümunəmiz paxlava Nizami yaradıcılığında
doi.org/10.30546/2702-0034.2025.1.28.021

**YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES**

*BAĞIROVA Könül.*
Şəxsi arxivlərdəki nəsr əsərlərində leksik təhriflər (Cəfər Cabbarlının hekayələri əsasında)
doi.org/10.30546/2702-0034.2025.1.28.025

*BAĞIRZADƏ Nəcibə.*
M.Ə.Rəsulzadənin ədəbiyyatla bağlı araşdırmalarında Azərbaycan davası
doi.org/10.30546/2702-0034.2025.1.28.028

*QƏDİROVA Afət.*
Satirik jurnallar milli mədəniyyətimizin refleksiya faktı kimi
doi.org/10.30546/2702-0034.2025.1.28.032

*MƏMMƏDOVA Aynurə.*
Müznibin qeyri-mətbu şeirləri arxiv materiallarında
doi.org/10.30546/2702-0034.2025.1.28.036

*MİKAYILOV Ülvi.*
İsa Muğannanın bədii nəsrində tale kodlarının təcəssümü
doi.org/10.30546/2702-0034.2025.1.28.042

**TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ**

*ABİDQIZI Göyərçin.*
Azərbaycan musiqi salnaməsində üç korifey sənətkarın mədəni irsi
doi.org/10.30546/2702-0034.2025.1.28.054

*ALMAZOVA Pakizə.*
Muzey işində Qərb təcrübəsi
doi.org/10.30546/2702-0034.2025.1.28.059

http://doi.org/10.30546/2702-0034.2025.1.28.054

**UOT:781.8**

**Göyərçin ABİDQIZI**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
goyercin.mustafayeva@yandex.com
**ORCID ID:0000-0002-8674-0258**

# AZƏRBAYCAN MUSİQİ SALNAMƏSİNDƏ ÜÇ KORİFEY SƏNƏTKARIN MƏDƏNİ İRSİ

**Açar sözlər:** musiqi, klassik, risalə, musiqi nəzəriyyəsi
**Keywords:** music, classical, risale, music theory
**Ключевые слова:** музыка, классический, трактат (рисале), музыкальная теория

**Giriş.** Dövrünün böyük alimi və musiqiçilərindən sayılan, XIII əsrin Səfiəddin Urməvisinin (1217-1294), XIV-XV əsrlərin Əbdülqadir Marağayisinin (1353-1435), XIX əsrdə isə Mir Möhsün Nəvvabın adlarının bir çəkilməsi, bu şəxslərin Azərbaycan musiqi elminin təməlini qoymuş olması və özlərindən sonra musiqi məktəbi yaratmalarının tarixi əsrlərə dayanır. Musiqi və şeirin, bir sözlə, incəsənətin bütün sahələrinin xalqımızın həyatında həmişə xüsusi yeri olub. *"Azərbaycan xalqının ictimai və iqtisadi həyatında olduğu kimi, mədəni həyatında da ayrıca bir dövr təşkil edən XIII-XIV əsrlərin ədəbi inkişafı bir neçə mərhələdən keçmişdir. Bu dövrün ilk mərhələsində Zülfüqar Şirvani, Hümam Təbrizi, Səfiəddin Urməvi, Fəxrəddin Hinduşah Naxçıvani, Fəzlullah Rəşidəddin, Zəkəriyyə Qəzvini kimi elmin müxtəlif sahələrində çalışan görkəmli alimlər yetişmişlər"* [10, s.84].

Görünür, elə buna görə də orta əsrlərdə bütün Şərq musiqisinin nəzəriyyə və təcrübi məsələlərini öz əsərlərində araşdırma mövzusuna çevirmiş və onlara yeni və daha parlaq rənglər qataraq adlarını tarixin qan yaddaşına qızıl hərflərlə həkk etmiş Səfiəddin Urməvi və Əbdülqadir Marağayi kimi iki korifey məhz Azərbaycandan çıxmışdır. Bu böyük şəxsiyyətlər özlərindən sonra gələn istedadlı gənclərin yoluna çıraq olmuş, onları araşdırma və tədqiqatlara ruhlandırmışlar.

**Səfiəddin Urməvinin musiqi elminə verdiyi töhfə.** XIII əsrdə adı hörmətlə anılan və görkəmli musiqişünaslardan sayılan həmyerlimiz Səfiəddin Urməvi 1216-cı ildə Cənubi Azərbaycanın və türklərin yaşadığı ən qədim insan mərkəzlərindən birində – Urmiya şəhərində anadan olmuşdur. Görkəmli ərəb alimi Hüsnü əl-Həriri özünün "Al-Mevsuatü'l-Arabiyye" əsərində Səfiəddin Urməvinin Azərbaycandan olduğunu yazır [6, s.943-944].

Son illərdə İranda S.Urməvinin fars əsilli olması ilə bağlı xüsusi bir kampaniya start götürmüşdür. Bəzi alimlər və ya "yaradıcı insanlar" S.Urməvini fars əsilli kimi təqdim etməklə hansısa çirkin məqsədlərə xidmət etməkdən çəkinmirlər. Ancaq tarixi məxəzlər heç də onları təsdiq etmir: musiqiçi alimin etnik mənşəyi ilə bağlı isə ən dəqiq məlumata ərəb alimi Abbas al-Azzavinin İraq ərazisindəki türkman musiqiçilərinə də yer verdiyi "Al-Musika-i Iraqiyye fi-ahtil-Mogul ve-t Turkman"


BY NC ND

əsərində rast gəlinir. O, bu əsərdə S.Urməvinin adını türkman mənşəli musiqiçilərin adları ilə birlikdə çəkir [3, s.22-34].

Musiqi təhsilini doğma vətənində alan Səfiəddin təhsilini Bağdadda davam etdirir. Burada xəttatlıq sahəsində uğur qazanan Səfiəddin fəlsəfə, məntiq, tibb, riyaziyyat, astronomiya elmlərini də öyrənir. Musiqi sənətində nə qədər uğurları olsa da, bir xəttat kimi şöhrət tapır və Bağdad saray kitabxanasının rəhbəri və baş xəttat təyin olunur. Saray məclislərində ud da çalan Səfiəddin musiqi sənətini axsatmır, əksinə, inkişaf etdirərək böyük hörmət sahibi olur. Bu aralar o, artıq Səfiəddin Urməvi (Urmiyalı) kimi tanınırdı. Bağdad Unversitetində dərs vəsaitinə çevrilən "Kitab əl-Ədvar" və "Şərəfiyyə" risalələri Azərbaycanda musiqi elminin nə qədər inkişaf etdiyini göstərən bir əsas idi. Səfiəddin Urməvi Azərbaycan musiqisinin elmi əsasını qoymuş, onun gələcək inkişafı üçün zəmin yaratmış və musiqi elminə "Sistemçilik" məktəbinin yaradıcısı kimi daxil olmuşdur. Dövrünün istedadlı bəstəkarı kimi tanınan Səfiəddin özü iki musiqi aləti yaratmışdır ki, 81 simli *nüzhə* müasir kanona, 33 simdən ibarət olan *müğni* isə rübaba bənzəyirdi.

Əbdülqadir Marağayi Şərqin böyük musiqişünası və həmyerlisi S.Urməvi haqqında "Məqasid əl-əlhan" risaləsində yazır: *"...Müsləsim zamanın ən böyük alimlərindən biri olan Əbdülmömün Səfiəddin Urməvi bir çox görkəmli şəxsiyyətlərin müəllimi olmuşdur. Şərqin məşhur musiqişünasları Şəmsəddin Səhrəvərdi, Əli Sitayi, Həsən Zamir və Hüsəməddin Qutluq Buğa onun yetirmələrindəndir..."* [8, s.8].

Səfiəddin orta əsr Şərqinin böyük musiqişünası və yeni musiqi sisteminin pioneri adlandırılır. O, yazı notunu icad edən ilk bəstəkar hesab olunur. Ustad sənətkarı səma cisimləri ilə qoşalaşdıran musiqişünaslar da olub. XX əsrin görkəmli ingilis musiqişünası Henri Corc-Farmer yazır: *"...XIII əsr musiqi səmasında parlaq bir ulduz zühur etdi. Onun adı Səfiəddin Əbdülmömin Urməvidir"* [5, s.212].

S.Urməvinin apardığı inqilabı islahatlar nəticəsində onun tərəfindən notlaşdırılmış yazılarla əsas hesab olunan 12 ladın (Üşşaq, Nəva, Busəlik, Rast, Əraq, İsfahan, Büzürk, Zirəfkənd, Zəngulə, Rəhavi, Hüseyni və Hicaz) və ikinci dərəcəli, farsca "əvaz" adlanan 6 ladın (Şahnaz, Mayə, Səlmək, Novruz, Gərdniyə və Gəveşt) təsviri verilmişdir.

S.Urməvi əsərlərini yazarkən əsas kimi Farabinin və İbn Sinanın əsərlərini götürürdü. Lakin bu, kor-koranə qəbuletmə deyildi. O, bu böyük şəxsiyyətlərin fikirlərini daha da irəlilətmiş, düzəliş və əlavələr etmişdir. İkinci traktatı, tələbəsi Şərafəddin Harun Cuveyniyə ithafən yazılan "Şərəfiyyə"nin giriş hissəsində S.Urməvi qeyd edir: *"Bu "Nisbətlər haqqında" tərtib etdiyim elmi risalə qədim yunan müdrikləri tərəfindən qoyulmuş əsaslara istinadən yazılmışdır. Fəqət bu əsər (mənim tərəfimdən) həm onların, həm də sonrakı müəlliflərin əsərlərində olmayan bir çox faydalı biliklə tamamlanmışdır"* [11, s. 282-303].

Dövr müharibələr, qan-qada, dağıntılar, istilalar dövrü idi. Müharibələr ara verən zaman elm, mədəniyyət inkişaf edir, təlatümlər başlandıqda isə bu inkişaf zəifləyir, hətta ən aşağı səviyyəyə düşürdü. Bütün bu neqativ hallarda iki sinif – kəndli-sənətkarlar və ziyalılar əziyyət çəkirdi. Cüveynilər zamanında həddən artıq diqqət və qayğı görən, hətta Şəmsəddin əl-Cüveyninin övladlarının tərbiyəsi ilə məşğul olan Səfiəddin Urməvi Cüveynilərin çökməsi ilə sıxıntılı anlarla üzləşdi. 300 dinarlıq borc üzündən məhkumluq həyatı yaşayan alim hicri tarixlə 693-cü ildə (28 yanvar 1294-cü il) Bağdad şəhərində haqqın rəhmətinə qovuşdu [14, s.479].

Onun “Came əl-Əlhan” və “Şərh-e Ədvar” əsərləri musiqiyə həsr olunmuş qiymətli əsərlər sırasındadır. Musiqi nəzəriyyəsinə aid olan və 1405-ci ildə qələmə alınan “Came əl-Əlhan” əsəri müqəddimə, 12 fəsil və nəticədən ibarətdir. O, “Şərh-e Ədvar” adlı əsərində Səfiəddin Urməvinin “Kitab ül-Ədvar” əsərini şərh etmişdir. Bunlardan başqa, musiqiyə aid olan digər, lakin hələ də heç bir nüsxəsi əldə olunmamış əsərləri də vardır [5, s.246-248].

Nəhəng regionun musiqi əsərlərinin əsasında duran çoxsaylı məqamların sistem halına salınmasında XIII əsrin çox görkəmli Azərbaycan alimi və musiqiçisi Səfiəddin Urməvi böyük rol oynamışdır. Onun işini bir başqa görkəmli Azərbaycan musiqiçi alimi – Əbdülqadir Marağayi (1354-1435) davam etdirmişdir [2, s.312-320].

**Əbdülqadir Marağayinin musiqi tarixindəki yeri.** Səfiəddin Urməvidən sonra XIV əsrin ortalarından etibarən musiqi tarixində silinməz iz qoymuş, yaradıcılığı günümüzdə də öz aktuallğını itirməmiş görkəmli ustadlarımızdan biri də Əbdülqadir ibn Qeybi əl-Hafiz əl-Marağayidir ki, özündən sonra da yaranmaqda, yaşamaqda olan gələcəyə musiqi elminin körpüsünü atmağa nail olmuşdur. Qeyd olunmalı əsas məsələlərdən biri də Əbdülqadir ibn Qeybi əl-Hafiz əl-Marağayinin XIV əsrin ortalarında Azərbaycanın məşhur elm və mədəniyyət mərkəzlərindən sayılan Marağa şəhərində anadan olmasıdır. Orta əsrlərin bir çox digər alimləri kimi, Əbdülqadir Marağayi də hərtərəfli təhsil almışdı. O, Şərq musiqi nəzəriyyəsini dərindən mənimsəmiş, gözəl xanəndə, musiqiçi, bəstəkar, rəssam-xəttat və şair olmuşdur. Əbdülqadir Marağayi öz şeirlərini Azərbaycan türkcəsi, fars və ərəb dillərində yazıb. Əbdülqadir Marağayi, özünün yazdığı kimi, şeirlərinin əksər qismini Azərbaycanda və İraq türkləri arasında geniş yayılmış “Segah”, “Üşşaq” və “Nəva” muğamlarına uyğun vəznlərdə qələmə alıb.

Marağa tarixi qaynaqlarda adı dəfələrlə hallanan, gözəl təbiətə malik və savadlı insanların çoxluğuyla seçilən bir şəhər kimi əks olunur. Bu barədə tarixçi Yaqut əl-Həməvi özünün “Mucəm əl-buldən” əsərində *“Marağa Azərbaycanın ən əzəmətli və ən məşhur şəhəridir”* deyə qeyd edir [4, s.261].

Marağa rəsədxanasının yaradılması tarixi qaynaqlarda 1259-cu il kimi qeyd olunursa, bu, şəhərin özünün daha qədim tarixə malik olması deməkdir. Strabonun “Tarix”ində adı keçən, tarixçi-ensiklopedist Yaqut Həməvinin də ağzıdolusu təriflədiyi, Minorskinin əsərlərində adı təkrarlanan, vətənimizin dilbər guşələrindən olan, tarixi əsrlərə dayanan Marağa şəhərində anadan olan Əbdülqadir Marağayi dövrünün digər sənətkarları kimi təhsil almış, Şərq musiqisini öyrənərək gözəl səsi ilə xanəndə, bəstəkar, rəssam-xəttat və şair olmuşdur. Azərbaycan türkcəsini, fars və ərəb dillərini gözəl bilən ədibin şeirləri də geniş yayılmışdır. Musiqiyə böyük marağı atası, tanınmış musiqiçi Mövlana Qeybidən keçmişdir.

Əbdülqadir uşaq ikən Quranı əzbərləyir, 10 yaşında musiqi elminin əsaslarını, qrammatika və natiqliyi, üslubiyyatı öyrənir və artıq onu da atası ilə birlikdə alim və şeyxlərin məclislərinə dəvət etməyə başlayırlar. O, məclislərdə Quran ayələrini avazla oxuyur və mürəkkəb musiqi əsərləri ifa edirdi. Musiqi sahəsində təhsilinə Şərqin Farabi, İbn Sina, Səfiəddin Urməvi, Qütbəddin Şirazi kimi alimlərinin musiqi nəzəriyyəsinə həsr edilmiş əsərlərini öyrənmək və daha da inkişafa yönəltməklə davam edir. Bu görkəmli alimlərin yazdığı əsərləri oxuyub öyrənməsi və daha da inkişaf etdirməsi ilə məşhurlaşan Əbdülqadir zamanla musiqi nəzəriyyəçisi kimi tanınır.

Təbriz sultanı Üveys Cəlair saray məclislərinin birində Ə.Marağayini “dövrün yeganəsi, musiqidə tayı-bərabəri olmayan” sənətkar kimi tanıdaraq bu barədə xüsusi

fərman vermişdi. Belə fərmanlardan ən təsirlisi isə Əmir Teymurun fərmanıdır ki, tarixdə öz əksini tapmış və böyük musiqişünasın həqiqi qiymətini təcəssüm etdirir. Həmin fərmandan iki cümlə bunun bariz sübutudur:

*"Oylə biridir ki, ədvarda ona bənzər biri var olmamışdır. Oylə bir ərdir ki, musiqi bilənlərin hamısına padşahdır"* [12, s.186].

Əbdülqadir Marağayinin fitri istedadı və bəstəkarlıq bacarığı haqqında xalq arasında dolaşan onlarla heyrətamiz rəvayət mövcuddur. O dövrün tarixi xronikasında qeydə alınmış belə hadisələrdən birinin maraqlı olacağını düşünərək məqalədə vermək qərarına gəldik.

Ramazan ayının girdiyi gecə (28 şaban, yəni 1377-ci ilin 11 yanvarında) Təbriz sarayında Sultan Hüseynin yanında bir elm və sənət məclisi qurulmuşdu. Bu məclisdə məşhur sənət adamları, şairlər, musiqiçilər iştirak edirdi. Bunlardan Cəlaləddin Fəzlüllahül-Übeydi (Əbdülqadirin dediyinə görə, o, Səfiəddinin "Kitabül-ədvar"ına və "Şərəfiyyə"sinə şərhlər yazmışdı), Şeyx Küçəc Təbrizi, Əmir Şəmsəddin Zəkəriyyə, Xoca Raziyəddin Rizvanşah, Salman Savəçi və başqalarını göstərmək olar. Söhbət bəstəkarlıqda ən çətin forma olan "növbəti-mürəttəb"dən gedirdi. Bu formada ayda bir əsərin yazılmasının belə çətinliyi və bəstəkardan böyük hünər tələb olunduğu söylənilirdi. Lakin bu məclisdə iştirak edən Əbdülqadir Marağayi buna cavab olaraq hər gün bir "növbəti-mürəttəb" yaza bildiyini bəyan etmiş və sabahı günü ramazan ayının hər günü bu formada bir əsər bəstələyib oxuya biləcəyini bildirmişdi. Bu xəbər hamını çox çaşdırmışdı, lakin Sultan Hüseyn bunu qəbul edərək, heyət (jüri) təşkil etmiş və onun başında Əbdülqadirdən öncə gələn böyük bəstəkar Xoca Raziyəddini təyin etmişdi (Qeyd edək ki, Xoca Raziyəddin Əbdülqadirin müəllimi, sonralar isə o, onun kürəkəni olmuşdu). Raziyəddin Rizvanşah ibn Zəki ət-Təbrizi həm də belə sərt şərt qoymuşdu ki, yazılacaq əsərlərin muğamları, ritmi və şeirləri müəllifə bircə gün əvvəl verilsin. Amma bu cür sərt şərtlər çərçivəsində yazılacaq əsərlər bitirildikdə 100 min dinarlıq mükafat veriləcəkdir. Əsərlərin sözləri isə məclisdə olan məşhur şairlərdən Əmir Zəkəriyyə, Cəlaləddin Übeydi, Şeyx Küçəc, Xoca Salman Savəçi tərəfindən seçiləcəkdi. Muğamlar və üsullar da bir gün əvvəldən bəstəkara veriləcəkdi. Beləliklə, hörmətli heyətin başçılığı ilə Sultan Hüseynin sarayında keçirilən maraqlı və tarixdə qalacaq qeyri-adi Ramazan müsabiqəsi işinə başlamışdı. 30-cu gecə Əbdülqadirin parlaq qələbəsindən sonra Sultan Hüseyn 100.000 dinarlıq mükafatı, Rizvanşah isə evlənmək üçün öz qızını Əbdülqadir Marağayinin evinə göndərmişdi [12, s.186-187].

Əbdülqadir Marağayi musiqi təlimi sahəsində geniş yaradıcılıq işi aparıb. Bir neçə qiymətli əsər yazıb. Bu ölməz əsərlər Şərq, xüsusilə Azərbaycan musiqisi ilə məşğul olanlar üçün tükənməz bir xəzinədir. Əmir Teymur Marağayi sənətini yüksək dəyərləndirir və onu fərmanı ilə "bütün musiqi bilicilərinin padşahı" adlandırır. Başıbəlalı alim Səmərqənddə yaşadığı dövrdə yaradıcılığından geri qalmır, "Bahar ritmi", "Dövri-şahi", "Kənz əl-Əlhan" ("Melodiyalar xəzinəsi"), "Came əl-Əlhan" ("Melodiyalar məcmusu"), "Məqasid əl-əlhan" ("Melodiyaların məqsədi"), "Lahiyyə" ("Musiqi"), "Şərh əl-ədvar" ("Dövrələrə şərhlər") və "Fəvaid-i əşərə" ("On fayda") kimi musiqi əsərləri və musiqişünaslıq risalələri yazır.

Dünya araşdırmaçılarının sözlərinə görə, Ə.Marağayinin məşhur əsəri olan "Came əl-əlhan"da ilk dəfə olaraq fars musiqisinin geniş not yazısı verilib. Şeirləri-

ni Azərbaycan türkcəsi, fars və ərəb dillərində yazan Əbdülqadir Marağayinin yaradıcılığı Azərbaycanda və İraq türkləri arasında geniş yayılmış, “Segah”, “Üşşaq” və “Nəva” muğamları böyük şöhrət qazanmışdı.

Araşdırmalarda qeyd edilir ki, Əbdülqadirin belə tez məşhurlaşmasında Marağa mühitinin böyük rolu olub. Çünki bu şəhər həmin dövrdə təkcə Azərbaycanın deyil, ümumən Yaxın Şərqin mühüm elm və sənət ocaqlarından idi.

*“...O, başlıca əsəri “Came əl-əlhan” (“Melodiyalar toplusu”) ilə yanaşı, Urməvinin “Kitab əl-ədvar”ına şərh şəklində “Şərh əl-ədvar” risaləsini yazmışdır. Marağayi orta çağ musiqişünaslığında ilk dəfə 12 məqamdan törəmə 24 şöbə sisteminin nəzəri özülünü yaratmışdır. Bir çox musiqi mətnlərini özü yazmış, 20 yeni ritm yaratmışdır. Sonunculardan altısı sonrakı musiqişünaslıqda yüksək dəyərləndirilmişdir. Əbdülqadir Marağayi doğma Azərbaycan türkcəsində şeirlər yazırdı”* [1, s.350].

Əbdülqadir Marağayi Yaxın və Orta Şərq ölkələrində Səfiəddin Urməvidən sonra musiqi elminin inkişafında böyük rol oynamışdır. *“XIII-XV əsrlərdə Yaxın və Orta Şərqin musiqi-nəzəri fikrinin inkişafı məhz Azərbaycanın iki böyük dühası və musiqişünası Səfiəddin Əbdül Mömin ibn Yusif ibn əl-Urməvinin (1217-1294) və Əbdülqadir ibn Qeybi əl-Hafiz əl-Marağainin (1353-1435) adları ilə bağlıdır”* [13, s.12].

**Mir Möhsün Nəvvabın çoxşaxəli fəaliyyəti.** XIII əsrdə S.Urməvinin bünövrəsini qoyduğu musiqi körpüsündən keçən, XIV-XV əsrlərin Ə.Marağayisindən sonra Azərbaycan mədəniyyəti və ədəbiyyatında öz sözünü deyən, dövrün yetişdirdiyi dühalardan biri də Mir Möhsün Nəvvab olmuşdur ki, əsrlər keçsə də, o da, əcdadları kimi, ədəbiyyatşünas, nəqqaş, xəttat, musiqişünas, rəssam kimi irsi sənətkarlığını davam etdirmiş, özündən sonra illərlə üzərində araşdırma aparılacaq çoxşaxəli yaradıcılığını gələcək nəsillərə miras qoymuşdur.

Musiqi nəzəriyyəsinin inkişaf tarixində bütöv bir mərhələ açan Səfiəddin Urməvinin “Kitabül-ədvar fi marifətün-nəğam vəl əvtar”, muğam nəzəriyyəçisi Əbdülqadir Marağayinin “Əlhani-siqanə”, “Came-əl əlhan”, “Məqasidül-əlhan”, “Kənz əl-əlhan”, “Lahiyyə”, “Risaleyi-fəvaidiəşərə” kimi musiqi sənətinə həsr olunmuş əsərlərindən sonra Mir Möhsün Nəvvabın fars və ərəb dillərində yazdığı əsərlər, əsasən də Azərbaycan dilində yazdığı “Vüzuhül-ərqam” əsəri Şərqdə ən yaxşı klassik və mükəmməl risalələrdir.

Mir Möhsün Nəvvab Qarabaği öz dövrünün görkəmli şəxsiyyətlərindən, mütərəqqi ziyalılarından biri olmuş, ərəb, fars, türk dillərini, sonradan isə rus dilini öyrənmiş, riyaziyyat, kimya, astronomiya elmlərinə dərindən yiyələnmiş, şair, rəssam, nəqqaş, pedaqoq, musiqişünas, xəttat kimi tanınmışdır.

Bir rəssam kimi yaratdığı “Teymurləngin portreti”, “Quşlar”, “Çiçəklər” rəsmləri, “Vüzuhül-ərqam” musiqi əsəri kimi bədii yaradıcılığı ilə yanaşı, rəssamlıq və musiqi sahəsində də gördüyü işlər xalqına böyük ərməğandır.

Nazilə Abdullazadə yazır ki, *“Vüzuhül-ərqam” əsərində Nəvvab muğamatı təhlil edərək onu şöbə və guşələrə ayırmış, bu xüsusda bir cədvəl tərtib etmişdir. “Vüzuhül-ərqam” klassik musiqi tarixini öyrənmək sahəsində qiymətli bir təşəbbüs idi”* [7].

XIX əsrin birinci yarsında, 1833-cü ildə Qarabağda anadan olmuş Mir Möhsün Nəvvabın yaşadığı dövr elə günümüzə qədər də bitməmiş, daha doğrusu, dünya bitsə də, heç bitməyəcək bir problemə göz açır. Zamanında deyilmiş və bu gün özümüzün də şahidi olduğumuz bir ifadə var: harda erməni varsa, orda qan-qada, hiyləgərlik var. Keçən əsrin əvvəllərində baş vermiş o qorxunc hadisələri öz gözləri ilə görüb, şəxsən

yaşayan ustadlarımızdan biri də elə M.M.Nəvvabdır. Ədib ermənilərin türklərin başına açdıqları hadisələri qələmə almaqla bizə bir tarix kitabı, bu hadisələrdən dərs çıxarmağımızı xatırladacaq abidə miras qoymuşdur.

M.M.Nəvvabın "Təvarixi-rəzm və şurişi tayifeyi-əraməniyeyi – Qafqazda firqeyi müsəlmanan" ("Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri") əsəri bugünümüzdə də öz aktuallığını qoruyur. Ədib yaşadığı dövrdə baş verən hadisələri, əsrimizin ən faciəli soyqırımlarını, 1905-1906-cı illərdə türk düşməni olan qeyri-millətlərin dəstəyi ilə ermənilərin (bir millət deyil) xalqımızın üzərinə qaldırılması nəticəsində baş vermiş qırğınları qələmə almışdır.

Kamandar Şərifli və Arif Ramazanzadə M.M.Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" kitabını tərtib etmiş, əski əlifbadan çevirərək böyük şəxsiyyətin yaradıcılığına öz dəyərli haqqını vermişlər. Kitaba yazdığı ön sözdə Kamandar Şərifli "Allahın evi" saydığımız kilsələrin fəaliyyətinə elə xaçpərəstlərin öz sözləriylə açıqlama gətirir: *"...rus diplomatı, general Mayevski öz qeydlərində yazır: "Erməni din xadimləri haqqında bir neçə söz demək istəyirəm. Onların dini fəaliyyəti olduqca cüzidir. Erməni din xadimlərinin fəaliyyəti "Allah kəlamını" çatdırmaqdan çox müsəlmanlarla xristianlar arasında nifaqı qızışdırmaqdan ibarətdir".* Vaxtı ilə Eçmiədzinə səfər etdikdən və onun fəaliyyətilə yaxından tanış olduqdan sonra fransız alimi Baron de-Bay belə yazmışdı: *"Bu kilsə bir müddət saxta pul düzəldənlərin yuvası olmuşdur... Bütün minnətdarlıqlarıma baxmayaraq, mən səmimi olmalıyam. Bu monastır məndə dini mərkəzdən çox siyasi mərkəz təəssüratı yaratdı"* [9, s.4].

Son dövrlərə qədər davam edən bu iğtişaş və dünyaya bar-bar bağıran, özünü yazıq və soyqırımına məruz qaldığına inandırmağa çalışan (dünya inanır və dəstəkləyir) pis erməni siyasətinə qarşı alimin qənaəti belədir ki, Nəvvabın vaxtında səsini çatdıra bilmədiyi bu faktlar bu gün bu milləti (saflığımızdanmı, rəhmli olmağımızdanmı, yoxsa həqiqətən millət kimi millət olmağımızdanmı) ayıldar və "yazılmış erməni qanunu"nda türkü düşmən gördüyü kimi, bəlkə bizim də bir düşmənimizin yalnız erməni olduğunu anlaya bilək.

Nəvvabın yazdığı faktlardan da göründüyü kimi, ermənilər yalnız Azərbaycan türklərinə qarşı deyil, Osmanlı türklərinə qarşı da, elə milli dəyərlərimizə də hər cür maddi və mənəvi soyqırımı etmişlər.

Mollaxana tipli məktəblərdən fərqli olaraq, M.M.Nəvvabın təşəbbüsü ilə açılmış yeni üsullu məktəblərdə ədəbiyyat, tarix, coğrafiya və digər fənlərdən dərs keçilir, millətin gələcəyi olan uşaqlara ziya nuru çatdırılırdı. Bu geniş qəlbli, böyük ürəkli insan "Əkinçi", "Ziya", "Kəşkül", "Molla Nəsrəddin", "İqbal", "Səda", "İrşad", "Şərqi-Rus" və nəşr olunan digər jurnal və qəzetləri də alır, eyni zamanda da şagirdlərini tanış edirdi.

Nəvvabın bədii yaradıcılığı əsasən qəzəl, müxəmməs, rübai, müəşşər janrlarında şeirlərdən ibarətdir. İyirmidən çox əsərin müəllifi olan M.M.Nəvvabın "Pəndnamə", "Batil-üs-sehr" İslam əlifbasının xeyri və onun başqa əlifba ilə əvəz edilməsinin zərəri haqqında, "Kifayətül-ətfal" nücum elminə dair, "Nurü-ənvar" peyğəmbərin şəriət ehkamlarının faydası haqqında, "Şəmasül-hidayə" 500 öyüd-nəsihətdən ibarət, "Kəşfül-həqiqə" üçcildlik təmsil və hekayətlərdən ibarət, "Muxtarnamə" və "Kənzül-Məhən və bəhrül-Həzən" 12 min beytdən ibarət, "Vüzuhül-ərqam" musiqi elmi haqqında, "Məsayibəl-əxbar" peyğəmbərlərin və şiə imamlarının həyatı haqqında, "Erməni və müsəlman davasının tarixi" 1905-1906-cı illər erməni-müsəlman davasından bəhs edir. Ədibin ən qiymətli əsərlərindən biri "Təzkireyi-Nəvvab"dır ki, əsərdə adları

çəkilən şairlərin həyatı haqqında verilən məlumatlar ədəbiyyatşünaslar üçün çox əhəmiyyətlidir. M.M.Nəvvabın seçib topladığı bədii nümunələr, Şuşada yaşayan şairlərin çoxlarının adları ilk dəfə bu əsərdə çəkilir. İki hissədən ibarət olan bu əsərdə 90-a qədər, daha doğrusu, 88 nəfər ziyalı, qələm əhli və şair haqqında məlumat verilir. Onların içərisində molla (Molla Məhəmməd, Şaki Abdal, Molla İsmayıl Məhzun), müəllim (Şayiq, Mirzə Əli Aşiq, Mirzə Süleyman, Mirzə Muxtar), tacir (Mirzə Hüseyn Çakər), sadəcə yeyib-içən, dəfçalan (Həsən Lələ), ölüyuyan (Molla İbrahim), tacir (Məşədi Mürtəza, İbrahim Tahir), mömin (Kərbəlayı Ələkbər), xanəndə (Məşədi Məhəmməd Bülbül), alverçi (Həsən Qara Qarabaği), təbib (Mirzə Heydər Təbib), qaçaqçılıq edən (Kavaler Qarabaği), rövzəxan (Molla Saleh) da var. Müxtəlif peşə sahibləri olan bu adamlar klassik şeir nəzəriyyəsinə vaqifmiş, ədəbiyyat tariximizə öz imzalarını ata bilmişlər. O, bu şairlər haqqında məlumat toplamaq və onları özündən sonrakı nəsillərə tanıtmaq kimi nəcib vəzifənin öhdəsindən ləyaqətlə gəlmiş, xalqımızın ədəbi tarixinə, elmə böyük xidmət göstərmişdir.

Azərbaycanda ilk dəfə kağız üzərində bədii kəsmələri tətbiq edən M.M.Nəvvabın Azərbaycan kitab mədəniyyəti xəzinəsinin zənginləşməsində və Şuşada yaratdığı mətbəədə 50-dək kitabın nəşr olunmasında böyük xidmətləri olmuşdur. XIX əsrdə Qarabağ ədəbi mühitinin zənginliyini özündə əks etdirən Əhməd bəy Cavanşirin 1883-cü ildə Şuşada yazılmış “1747-ci ildən 1805-ci ilə qədər Qarabağ xalqının siyasi vəziyyətinə dair” adlı əsəri də 1884-cü ildə M.M.Nəvvabın mətbəəsində çap olunub.

Azərbaycanda təsviri sənət və kitab tərtibatının inkişafında M.M.Nəvvabın böyük xidmətləri olmuşdur. Böyük istedad sahibi olan M.M.Nəvvabın “Bəhrül-həzən” əsərinə çəkdiyi illüstrasiyalar Azərbaycan incəsənəti üçün dəyərlidir və burada böyük tarix, insanların mübarizə əzmi, qəhrəmanlıq sahələri öz əksini tapmışdır. 1849-1850-ci illərdə Tehranda litoqrafiya üsulu ilə çap olunmuş “Şahnamə”yə çəkdiyi rəsmlər M.M.Nəvvabın bizə gəlib çatmış ilk bədii yaradıcılıq nümunələri hesab olunur.

M.M.Nəvvabı hər şeydən öncə musiqişünas, Azərbaycan dilində yazılmış “Vüzuhül-ərqam” (“Rəqəmlərin izahı”) risaləsinin müəllifi kimi tanıyırlar. Ən yaxşı klassik ənənələr ruhunda qələmə alınmış əsər Şərqdə bu qəbildən yazılan son risalələrdən biridir. *“Vizuhül-ərqam” keçən əsrdə yalnız Azərbaycanda deyil, bütün Şərq ölkələrində muğam ifaçılığının və musiqi incəsənətinin vacib məsələlərindən bəhs edən qiymətli bir musiqi əsəridir”* [12, s.263].

M.M.Nəvvabın yaratdığı “Məclisi-fəramuşan” adlı ədəbi, “Məclisi-xanəndə” adlı musiqi məclislərinin üzvləri şairlərdən Abdulla bəy Asi, Fatma xanım Kəminə, Məşədi Eyyub Baqi, Xan Qarabaği, Abdulla Həsən Şahid, ifaçı və müğənnilərdən Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski idi. Nə qədər qəribə səslənsə də, bu musiqi məclisi bir çox musiqiçilər üçün ilk təhsil məktəbi idi. Bu məclislərdə M.M.Nəvvabın şeirlərinin sözlərinə muğamlar ifa olunur, sənətkarın ifaçılıq məharəti, sənətdə inkişaf üçün lazım gələn bilgilər, lazımi məlumatlar, qədim sənətkarların çalğısı, ifa tərzi və bir çox incə məqamlar öyrədilir və gənc sənətkarlara aşılanırdı.

Musiqi sahəsi məsələlərini əhatə edən “Vüzuhül-ərqam”da M.M.Nəvvab müsəlman Şərqinin Səfiəddin Urməvi, Əbdülqadir Marağayi kimi görkəmli filosof və musiqişünaslarının araşdırmalarına əsaslanaraq musiqinin mahiyyəti, estetikası, dinləyiciyə emosional, müalicəvi-psixoloji təsiri və ifaçılıq problemlərindən bəhs etmişdir. Nəvvab burada ilk dəfə olaraq “dəstgah” terminindən istifadə edir və o vaxt Qarabağda məlum olan altı dəstgahın (“Rast”, “Mahur”, “Şahnaz”, “Rəhavi” (yaxud

“Rahab”), “Çahargah” və “Nəva”) adını çəkir. Nəvvaba görə, ifa olunan dəstgahın tərkibi bir çox hallarda ifaçının zövq və qabiliyyətindən asılı olur. O, əsərdə Qarabağ musiqiçilərinin repertuarında olan və ifa edilən 82 mahnı və muğamın adını çəkir.

**Nəticə.** Bu gün əminliklə deyə bilərik ki, S.Urməvidən musiqi sahəsində yaradıcılıq estafetini qəbul edən Ə.Marağayidən sonra bu məsul işi boynuna götürən və öhdəsindən ləyaqətlə gələn M.M.Nəvvab Şuşanın mədəni və ictimai həyatında fəal iştirak etməklə bütövlükdə Azərbaycan mədəniyyətinin inkişafına böyük töhfələr bəxş etmiş, elmin digər sahələrində olduğu kimi, musiqimizin inkişaf tarixində də əhəmiyyətli rol oynamışdır.

Hər üç sənətkar öz dövründə musiqi, incəsənət və elmin inkişafına böyük töhfələr vermişdir.

Səfiəddin Urməvi musiqi nəzəriyyəsinin banilərindən biri kimi Şərq musiqisinin əsas prinsiplərini müəyyənləşdirmiş, Əbdülqadir Marağayi muğam, ahəng və ritm sistemlərini təkmilləşdirmiş, musiqi haqqında dəyərli elmi əsərlər yaratmış, Mir Möhsün Nəvvab isə Azərbaycan musiqisinin nəzəri əsaslarını araşdırmaqla “Vüzuhül-ərqam” adlı kitabında muğam sənətini dərindən izah etmişdir.

Bu üç dahi şəxsiyyətin fəaliyyəti Azərbaycan mədəniyyətinin zənginləşməsi və dünya miqyasında tanınmasına böyük təsir göstərmişdir. Onların əsərləri bu gün də öyrənilir və milli musiqimizin inkişafına xidmət edir.

Əlaqə
E-mail: **goyercin.mustafayeva@yandex.com**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Prof. S.S.Əliyarlının redaktəsi ilə. Bakı, 2009, 861 s.
2. Ağayeva S. “Came əl-əlhan” və “Favaid-i əşərə” risalələri//Azərbaycan Musiqi Tarixi. I cild. Bakı, 2012, 218 s.
3. Abbas al-Azzavi. Al-Musika-i Iraqiyye fi-ahtil-Mogul ve-t Turkman. Bağdad, 1951, 346 s.
4. Əliyeva N. “Mucəm əl-buldən” əsərində Azərbaycan və Qafqaz. Bakı: “Elm və təhsil”, 2020, 424 s.
5. Farmer H.G. Abd al-Qadir ibn Gaibi on Instruments of Music, Orients, XV, Leiden 1962, p.230
6. Hüsnü el-Hariri. el-Mevsuatü'l-Arabiyye. I cild. Dəməşq, 1998, 1056 s.
7. https://www.utro.az/az/posts/detail/susali-mir-mohsun-nevvab-ve-onun-tezkireyi-nevvab-eseri-1661757070
8. Marağai Ə. Məqasid əl-Əlhan. Tehran, 1965, 84 s.
9. M.M.Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: “Azərbaycan”, 1993, 128 s.
10. Nəhmətova Könül. Məhəmmədəli Tərbiyətin “Danişməndani-Azərbaycan” əsəri. Bakı: “Elm və təhsil”, 2012, 132 s.
11. Səfərova Z. Səfiəddin Urməvinin “Şərəfiyyə” risaləsi/Azərbaycan musiqi tarixi. Bakı: “Şərq-Qərb”, 2012, 274 s.
12. Səfərova Z.Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı: “Azərnəşr”, 2006, 544 s.
13. Səfərova Z. Azərbaycan musiqi tarixi. 5 cilddə. I cild. Bakı: “Şərq-Qərb”, 2012, 592s.
14. Türkiye Diyanet Vakfı. İslam Ansiklopedisi. 1-44-cü ciltler. Cilt 35. İstanbul, TDV, 2008, 587 s.

**Məqaləyə istinad:** Göyərçin Abidqızı. Azərbaycan musiqi salnaməsində üç korifey sənətkarın mədəni irsi. Nömrə 1 (28), 2025. səh.91-101.
DOİ.10.30546/2702-0034.2025.1.28.054

***Goyarchin ABIDGIZI***

## THE CULTURAL HERITAGE OF THREE OUTSTANDING ARTISTS IN THE HISTORY OF AZERBAIJANI MUSIC

***S u m m a r y***

A mention of the names of Safi ad-Din al-Urmawi (1217-1294) in the 13th century, Abd al-Qadir Maraghi (1353-1435) in the 14th-15th centuries, and Mir Mohsun Navvab in the 19th century, who were considered to be great scientists and musicians of their time, is the fact that these people laid the foundation of Azerbaijani music science and the music school after them. “Kitabul-advar fi marifatun-nagam vel avtar” by Safi ad-Din al-Urmawi, who opened a whole stage in the history of the development of music theory, “Alhani-siganah”, “Jami-al-Alhan”, “Maqasid al-Alhan”, “Kanz al-Alhan”, “Lahiyya”, “Risaleyi-favaidiashara” and other works dedicated to the art of music by mugham theorist Abd al-Qadir Maraghi, the works written by Mir Mohsun Navvab in Persian and Arabic languages, mainly “Vuzuh-ul-Argam” written in Azerbaijani, are the best classical and perfect risales in the East. Three outstanding artists like Safi ad-Din al-Urmawi, Abd al-Qadir Maraghi and Mir Mohsun Navvab, who have covered all the theoretical and practical issues of Eastern music since the Middle Ages, grew up in Azerbaijan and became a beacon for the talented young people who came after them.

***Гоуарчин АВИДГЫЗЫ***

## КУЛЬТУРНОЕ НАСЛЕДИЕ ТРЁХ КОРИФЕЕВ В МУЗЫКАЛЬНОЙ ЛЕТОПИСИ АЗЕРБАЙДЖАНА

***Р е з ю м е***

Имена великих учёных и музыкантов, таких как, Сафиаддина Урмеви (XIII в., 1217-1294), Абдульгадира Марагаи (XIV-XV вв., 1353-1435) и Мир Мохсуна Навваба (XIX в.), перечисляются в одной последовательности, ибо эти личности являются основателями музыкальной науки Азербайджана и после них появились музыкальные школы. Их истории проникают корнями в глубины веков. Открывающая целую страницу в истории развития музыкальной теории «Китабуль-адвар фи марифатун негам вал автар» («Книга о кругах») Сафиаддина Урмави, книги «Джаме аль-альхан» («Собрание мелодий»), «Магасидул альхан» («Назначение мелодий»), «Кянзюль ал-альхан» («Сокровищница мелодий»), «Альхани-сигане» («30 песен»), «Лахиййя» («Музыка»), «Рисалеи-феваидиашара» («Трактат о 10 пользах») теоретика мугама Абдульгадира Марагаи, написанные на персидском и арабском языках, произведения Мир Мохсуна Навваба, в частности, «Вюзухуль-аргам» («Наука о музыке») на азербайджанском языке, относятся к самым лучшим и совершенным трактатам на Востоке. Эти выдающиеся люди, Сафиаддин Урмави, Абдульгадир Марагаи и Мир Мохсун Навваб, охватившие в своих трудах все теоретические и практические вопросы, начиная со средних веков, были выходцами именно из Азербайджана и осветили собою пути талантливых молодых людей, идущими вслед по этой стезе.